

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 93 (20.994)

17 may 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhərində yeni yaşayış kompleksi istifadəyə verilmişdir





"2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a əsasən, Naxçıvan şəhərində yeni yaşayış kompleksləri tikilir, əhalinin kommunal-mənzil şəraiti yaxşılaşdırılır.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, mayın 16-da Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yeni yaşayış kompleksi istifadəyə verilmişdir.

Açılış tədbirində çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov demişdir ki, Naxçıvan şəhərində digər sahələrlə yanaşı, sakinlərin mənzillərlə təmin olunması da diqqət mərkəzində saxlanılır. Təkcə 2013-cü ildə iki 10 mərtəbəli və bir 15 mərtəbəli yaşayış kompleksi tikilərək, 12 bina isə yenidən qurularaq sakinlərin istifadəsinə verilmişdir. Hazırda şəhərin Heydər Əliyev prospektində, "İstiqlal", Atatürk, Kazım Talıblı küçələrində çoxmərtəbəli yeni binaların tikintisi davam etdirilir, 5 binada isə əsaslı təmir və yenidənqurma işləri aparılır. Həyata keçirilən bu tədbirlər Naxçıvan şəhərinin görkəmini tamamilə dəyişmiş, muxtar respublikanın paytaxtı müasir şəhərə çevrilmişdir.

Sakin Elnar Hüseynov yeni yaşayış kompleksində gənclərin mənzillə təmin olunmasını ölkəmizdə insan amilinə verilən qiymət kimi dəyərləndirmiş, yaradılan şəraitə və göstərilən qayğıya görə gənc ailələr adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində yeni yaşayış kompleksinin – Gənclər şəhərciyinin istifadəyə verildiyini bildirmiş, bu münasibətlə sakinləri təbrik edərək demişdir: "Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt bu gün ölkəmizdə uğurla davam etdirilir. Həyata keçirilən islahatlar Azərbaycanı inkişaf və tərəqqiyə qovuşdurmuş, bütün sahələrdə uğurlu nəticələr qazanılmışdır. Naxçıvan şəhərində istifadəyə verilən yeni yaşayış kompleksi də ölkəmizdə gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir".

Ali Məclisin Sədri demişdir: "Bu gün Azərbaycanda sabitlik və inkişaf vardır. Ölkə vətəndaşlarının, eləcə də gənclərin yaşayışının və rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Hər il müasir yaşayış



kompleksləri tikilir, yeni iş yerləri açılır, gənclərin məşğulluğu təmin edilir. Dövlət vəsaiti hesabına tikilən bu yaşayış kompleksi də ipoteka krediti ilə gənc ailələrə verilmişdir. Kompleks sakinlərin rahatlığı nəzərə alınaraq inşa edilmiş, onların gündəlik tələbatlarının ödənilməsi diqqət mərkəzində saxlanılmışdır. Bütün bunlar gələcəyimiz olan gənclərə göstərilən qayğının daha bir ifadəsidir".

Qeyd olunmuşdur ki, muxtar respublikanın rayon mərkəzlərində də yeni yaşayış komplekslərinin tikintisi nəzərdə tutulmuşdur. Həmçinin Naxçıvan şəhərində digər bir yaşayış kompleksinin inşası davam etdirilir. Bu da gənclərin mənzillə təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Ali Məclisin Sədri mənzillə təmin olunan gənclərin bundan sonra da ölkəmizin inkişafı istiqamətində səylə çalışacaqlarına, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə əminliyini bildirmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, yaşayış kompleksinin tikintisi Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsi tərəfindən aparılmışdır. Kompleksin tərkibinə beşmərtəbəli 3 yaşayış binası daxildir. Binalardan 2-si 30, 1-i isə 20 mənzillidir. 30 mənzilli yaşayış binalarındakı hər mənzilin sahəsi 54 kvadratmetrdir. 20 mənzilli yaşayış binasındakı 5 üçotaqlı mənzilin hər birinin sahəsi 61 kvadratmetr, 15 ikiotaqlı mənzilin hər birinin sahəsi isə 48 kvadratmetrdir. Ümumilikdə, yaşayış kompleksində 80 mənzil vardır.

Binalar mühəndis-texniki qaydalara uyğun inşa edilmiş, lazımi kommunal-məişət şəraiti yaradılmışdır. Mənzillərə kommunikasiya xətləri çəkilmiş, isitmə və mərkəzi antena sistemləri qurulmuşdur. İsti, soyuq və rütubətə davamlı izolyasiya qatına malik binaların zirzəmisində avtomobil dayanacağı yaradılmış, həyətdə geniş abadlıq işləri aparılmış, istirahət parkı istifadəyə verilmişdir.

Kompleksla tanışlıqdan sonra gənclərlə görüşən Ali Məclisin Sədri mənzilin hər bir insanın həyatında vacib amil olduğunu bildirmiş, onları bir daha təbrik etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Beynəlxalq Muzeylər Günü qeyd edilib

***18 may – Beynəlxalq Muzeylər Günü münasibətilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə tədbir keçirilmişdir. Tədbiri mədəniyyət və turizm naziri Sarvan İbrahimov açaraq qeyd etmişdir ki, bu günün qeyd olunmasında əsas məqsəd xalqlar arasında mədəniyyətlərarası əlaqələrin inkişafına töhfə verməkdir.***

Nazir çıxışında bildirmişdir ki, Azərbaycanda bu sahənin inkişafı, muzeyşünaslığın təşəkkül tapması, muzeylər şəbəkəsinin yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmişə muzeylərə böyük diqqət və qayğı göstərmişdir. 1969-cu ilə qədər Azərbaycanda cəmi 29 muzey fəaliyyət göstərirdisə, bu gün ölkəmizdə 200-dən çox muzey fəaliyyət göstərir.

"Bu gün doğma Azərbaycanımızda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu sahədə uğurlu addımlar atılır, böyük işlər həyata keçirilir", – deyən Sarvan İbrahimov vurğulamışdır ki, muxtar respublikamızda da muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində qədim diyarda yeni muzeylər yaradılmış, fəaliyyətdə olan muzeylər təmir olunmuşdur. Bu tədbirlər maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsi və təbliğ olunmasına şərait yaratmışdır. Əgər 1997-ci ilədək qədim diyarda 13 muzey var idisə, hazırda 25 müxtəlifprofilli muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir.



Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi Nizami Rəhimov, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin direktoru, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova, Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova, Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədova, Bəhruz Kəngərli Muzeyinin direktor əvəzi Mahir Məmmədov çıxışlarında muzey işinin müxtəlif məqamlarından danışmış, muzeylərin keçmişlə bu günümüz arasında körpü rolu oynadığını vurğulamışlar.

Tədbirdə fərqlənən muzey işçilərinin bir qrupuna Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanları təqdim edilmişdir.

Sonra tədbir iştirakçıları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə baxmışlar.

**Əli RZAYEV**

*17 may Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günüdür*

# Muxtar respublikada informasiya texnologiyalarının inkişafı diqqət mərkəzindədir

***Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2006-cı il 26 mart tarixli qətnaməsinə əsasən, hər il mayın 17-si dünyanın müxtəlif ölkələrində "Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü" kimi qeyd olunur.***

İnformasiya cəmiyyəti anlayışı ictimai həyatın bütün sahələrində, cəmiyyətin və şəxsiyyətin həyat fəaliyyətində informasiyanın rolunun durmadan artırılmasını nəzərdə tutur. İnformasiya cəmiyyətində əhalinin böyük hissəsi müasir informasiya texnologiyalarından istifadə etməklə informasiyanın, ən əsası isə onun ali forması olan biliyin istehsalı, saxlanması, emalı və ötürülməsi ilə məşğul olur.

Azərbaycanda informasiya cəmiyyətinin qurulması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ümummilli liderimiz Heydər Əliyev 2003-cü ildə ölkəmizdə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nı təsdiq etmişdir. Milli strategiyanın qəbulundan sonra ölkəmizdə bu sahədə kompleks tədbirlər həyata keçirilmiş, informasiya və kommunikasiya texnologiyalarının həyatın bütün sahələrində tətbiqi genişlənmiş, bu sahənin inkişafı yeni mərhələyə qədəm qoymuşdur. Rabitə və informasiya texnologiyalarının inkişafına mühüm əhəmiyyət verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2003-cü ildə dövlət başçısı kimi ilk dəfə olaraq İsveçrənin Cenevrə şəhərində keçirilən informasiya cəmiyyəti üzrə dünya sammitində iştirak etmişdir. Qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyətinin, ilk növbədə, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə ilə bağlı olmasını nəzərə alan ölkə başçısı bu sahənin inkişafını daim diqqət mərkəzində saxlayır.

Bu gün ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sahəsində məqsədyönlü tədbirlər görülür. Son illər bu sahənin inkişafı məqsədilə qəbul edilən dövlət proqramları, həyata keçirilən islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına inteqrasiyası təmin edilmiş, elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" Sərəncamının, eləcə də bununla bağlı qəbul olunan dövlət proqramlarının icrası nəticəsində ölkəmiz kosmik sənaye sahəsində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 2013-cü il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki "Azərspace-1"in orbitə buraxılması isə ölkəmizin dünya kosmik məkanına inteqrasiyasını təmin etmişdir.



İnformasiya texnologiyalarının inkişafı sahəsində müəyyənləşdirilən dövlət siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir, informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. İnformasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqinə, elektron poçt-maliyyə xidmətlərinin, internetdən istifadə səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən 82 dövlət təşkilatına və 9 idman federasiyasına elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "Elektron hökumət" portalı yaradılmış, 34 dövlət orqanının xidmətləri portala inteqrasiya edilmişdir. "Elektron hökumət" portalı üzərindən rabitə, genişzolaqlı internet xidmət haqları, elektrik enerjisi və qaz haqlarının ödənilməsi təşkil edilmiş, istifadəçilərin portalda qeydiyyatdan keçməsi avtomatlaşdırılmışdır. Bununla yanaşı, Naxçıvan Şəhər Rabitə İdarəsində elektron imzanın sertifikat mərkəzi yaradılmış, mərkəz lazımi texniki avadanlıqlarla təmin edilmişdir.

Muxtar respublikanın yaşayış məntəqələri tamamilə telefonlaşdırılmış, bir kanal vasitəsilə telefon, internet və televiziya xidmətlərindən istifadəyə imkan verən Yeni Nəsil Telekommunikasiya sistemlərinin tətbiqinə başlanılmışdır. 2010-cu ilin may ayında Naxçıvan şəhərini, Babək qəsəbəsini, Nehrəm və Yarımca kəndlərini, 2012-ci ilin mart ayında Şərur və Sədərək rayonlarını, 2014-cü ilin fevral ayında isə Şahbuz və Babək rayonlarını əhatə edən 3-cü nəsil telekommunikasiya xidmətlərindən istifadəyə imkan verən Yeni Nəsil Telekommunikasiya avadanlıqları istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə demişdir: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. Muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

Muxtar respublikada informasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirlər poçt sistemini də əhatə etmişdir. "Maliyyə xidmətlərinin inkişafı" layihəsinə uyğun olaraq, müasir informasiya texnologiyalarının tətbiqi, poçt sisteminin yenidən qurulması, yenitipli elektron xidmətlərin göstərilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Layihəyə uyğun olaraq, muxtar respublikada 105 poçt şöbə və bölməsi avtomatlaşdırılmış, yeni sistem üçün server qurulmuş, lazımi proqram təminatı ilə təchiz edilmişdir. Ötən ildən muxtar respublikada kommunal xidmət haqlarının poçt məntəqələrində yığılmasına başlanılmışdır. Gələcəkdə bank-maliyyə xidmətlərinin göstərilməsi üçün də lazımi infrastruktur yaradılmışdır.

Keyfiyyətli televiziya yayımı, elektron medianın inkişafı informasiya cəmiyyətinin qarşıya qoyduğu əsas tələblərdəndir. Muxtar respublikada 2012-ci ilin mart ayından etibarən rəqəmsal yayıma başlanılmışdır. Hazırda muxtar respublikanın yaşayış məntəqələrinin 94 faizində 12 televiziya kanalının rəqəmsal formatda yayımı təmin edilmişdir. Cari ilin ikinci yarısına qədər muxtar respublikanın yaşayış əraziləri bütünlüklə rəqəmsal yayıma keçiriləcəkdir. Bundan əlavə, muxtar respublika ərazisində İP televiziyanın yayımı təşkil edilərək sakinlərə Yeni Nəsil Telekommunikasiya Sistemi üzərindən televiziya kanallarını izləmək və digər xidmətlərdən yararlanmaq imkanı yaradılmışdır.

Yeni optik kabel magistrallarının tikintisi böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsində vacib şərtdir. Bu gün muxtar respublikada fiber-optik telekommunikasiya xətlərinin uzunluğu 991 kilometrə çatdırılmış, mövcud te-





lekommunikasiya şəbəkəsinin 94 faizi optik şəbəkəyə birləşdirilmişdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, 2012-ci ilin avqust ayından etibarən Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrasına başlanmışdır. Hazırda ümumi uzunluğu 240 kilometr olan Sədərək-Ordubad böyüktutumlu fiber-optik kabel magistral xəttinin tikintisi davam etdirilir.

Optik şəbəkənin genişlənməsi əhalinin internetdən istifadə imkanlarını da xeyli artırmışdır. Bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, muxtar respublikaya daxil olan internetin sürəti artırılmış, ümumtəhsil məktəblərində quraşdırılan kompüterlərin 84 faizi internetə qoşulmuş, internet xidmətlərinin tarifləri aşağı salınmışdır. Simsiz internetin sürətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi məqsədilə Naxtel şəbəkəsi üzərində 5 yeni baza stansiyası istifadəyə verilmişdir. Bundan əlavə, "Naxtel" operatorunun şəbəkədaxili və digər mobil operatorlararası SMS xidməti yaradılmışdır. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 92 faizində genişzolaqlı, 80 faizində isə simsiz internet xidmətləri göstərilir. Kompüterdən istifadə edənlərin sayı 300 mindən, internetdən istifadə edənlərin sayı isə 344 mindən artıqdır. Eyni zamanda muxtar respublika ərazisində 4 mobil operator fəaliyyət göstərir. Bütün bunlar informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin uğurlu nəticələridir.

Naxçıvanda "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzi yaradılmışdır. Bu, muxtar respublika üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, idarəetmə mərkəzi muxtar respublikada informasiya təhlükəsizliyinin təmin edilməsi, elmtutumlu yeni layihələrin icrası, keyfiyyətli teleradio yayım və rabitə xidmətlərinin göstərilməsi, eləcə də elektron hökumətin formalaşdırılması prosesini xeyli sürətləndirəcəkdir.

Muxtar respublikada informasiya texnologiyalarının ayrı-ayrı sahələrdə də tətbiqinə diqqət yetirilir. Belə ki, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının, Naxçıvan Dövlət Universitetinin kitabxanasının bazalarında elektron kitabxana yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvanşünaslıq" Mərkəzi və AMEA-nın Naxçıvan Bölməsi üçün isə elektron kitabxana və elektron arxiv sistemi, məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxanalar istifadəyə verilmişdir.

***İnformasiya cəmiyyətinin formalaşması prosesi mürəkkəb və çoxşaxəlidir. Odur ki, muxtar respublikada bundan sonra da informasiya texnologiyalarının inkişafı daim diqqət mərkəzində saxlanılacaq, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçiriləcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidməti***

---

*İstehsal müəssisələri*

# Kərpic zavodunun istehsal gücü artırılıb

***"Gəmiqaya Kərpic Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti son illər Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılmışdır.***

Muxtar respublikamızda belə müəssisələrin yaradılmasının nəticəsidir ki, daxili bazar keyfiyyətli yerli tikinti materialları ilə təmin olunur. İldən-ilə genişlənən quruculuq tədbirləri kərpic zavodunun istehsal gücünün artırılması və qış mövsümündə də tam gücü ilə işləməsi zərurətini yaratmışdı. Bu məqsədlə yeni layihə hazırlanmış və ötən il layihənin icrasına başlanılmışdır. Zavodun qurutma sexində Türkiyə istehsalı olan və kompüterlə idarə edilən müasir texnoloji avadanlıqlar quraşdırılmış, kərpiclə dolu diyircəkli arabaların avtomatik hərəkəti üçün dəmir relslər çəkilmiş, istiliklə təminat və nəmliyin aradan qaldırılması üçün xüsusi qurğular qurulmuşdur. Eni 12, uzunluğu 50



metr olan süniqurutma sexi 4 kameradan ibarətdir. Hər kameraya ilkin olaraq 13 min ədəd kərpic yığılır. İlk mərhələdə kərpicin nəmliyi götürülür, ikinci mərhələdə qurutma prosesinə başlanılır. Rejimə uyğun olaraq, hər 7-15 dəqiqədən bir qapılar avtomatik açılır, hər kameradan kərpic dolu birdiyircəkli araba xaric olmaqla digəri sexə daxil olur. Ümumilikdə, hər qurutma sexinin 8 saatlıq iş rejimində gündəlik istehsal gücü 20 min kərpic təşkil edir.

Kərpicbişirmə sahəsində yaranan istilik xüsusi borularla aspirator vasitəsilə sorulub süniqurutma sexinə ötürülür. Bununla həm istilik sisteminin dövriyyəsi təmin edilir, həm də enerji itkisinin qarşısı alınır. Zərurət yarandıqda isə qurutma bölməsində qurulmuş istilik avadanlığından da istifadə edilir. Qurutma sexinin istifadəyə verilməsi ilə zavodun mövsümdən asılılığı aradan qaldırılmış, müəssisənin fasiləsiz fəaliyyəti təmin edilmişdir.

Ancaq artan tələbatın ödənilməsi üçün zavodun istehsal gücünün artırılması zərurəti yaranmışdır. Bu məqsədlə müəssisədə fəaliyyət göstərən və bir-birini tamamlayan üç istehsal sahəsində – kərpickəsmə, kərpicbişirmə və qurutma sexlərində istehsal prosesinin təkmilləşdirilməsi və daha müasir texnoloji avadanlıqların alınıb quraşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Layihəyə uyğun olaraq, kəsmə sexində yeni müasir texnoloji avadanlıqlar quraşdırılmış, xammalın iki mərhələdə üyüdülməsi təmin edilmiş, kərpicbişirmə sexində əlavə sobalar tikilmiş, mövcud sobaların daxilində əsaslı təmir işləri aparılmışdır. Süniqurutma sexində isə Türkiyə istehsalı olan daha bir istilik avadanlığı quraşdırılmışdır. İstehsal olunan məhsulun təbii hava şəraitində qurudulması və saxlanılması üçün əlavə çardaqlar qurulmuş, rəflər hazırlanmış, zavod daxilində yük daşınması üçün yüksək manevr etmək imkanlarına malik müasir texnikalar alınmışdır.

Zavodun istehsal gücünün artırılması artan tələbatın ödənilməsinə və daxili bazarın keyfiyyətli yerli tikinti materialları ilə təmin edilməsinə əlverişli şərait yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır. Hazırda müəssisədə 157 nəfər çalışır. Kollektiv cari ili uğurlu göstəricilərlə başa vurmaq üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir.

Zavod fəaliyyətə başlayan zaman gün ərzində 25 min ədəd kərpic istehsal olunurdusa, yeni layihənin həyata keçirilməsindən sonra gün ərzində 45-50 min ədəd kərpic istehsal etmək imkanı yaranmışdır.

Qeyd edək ki, zavod xammalın yerləşdiyi ərazidə inşa olunduğundan əlavə daşıma xərcləri çəkilmir, boşdayanma hallarına yol verilmir. İstehsal prosesi konveyer üsulu ilə həyata keçirilir, texnoloji proseslərə və məhsulun keyfiyyətinə ciddi diqqət yetirilir.

Zavodda istehsal edilən səsboğucu, radiasiyasız, yayda sərin, qışda isə isti saxlayan yüksəkkeyfiyyətli tikinti materialı kimi kərpicə tələbat ildən-ilə artır. Bu da, təbii ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının və əhalinin maddi rifahının daha da yaxşılaşmasının göstəricisidir.

**Kərəm HƏSƏNOV**



Naxçıvan Dövlət Xalça Muzeyi

***YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının qərarına əsasən, 1978-ci ildən başlayaraq dünya ölkələri mayın 18-ni "Beynəlxalq Muzeylər Günü" kimi qeyd edir. Bu günün qeyd olunmasında əsas məqsəd mədəniyyətlərarası əlaqələrin inkişafına kömək göstərməkdən ibarətdir.***

*18 may Beynəlxalq Muzeylər Günüdür*

# Muzeylər hər bir xalqın maddi-mənəvi sərvətlər xəzinəsidir

Muzeylər maddi-mənəvi dəyərləri toplayan, qoruyan və təbliğ edən mədəniyyət ocaqlarıdır. Azərbaycanda muzey işinin maraqlı tarixi vardır. 1896-cı ildə böyük yazıçı və dramaturq Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində muzey yaratmaq təşəbbüsü ilə Xalq Məktəbləri İdarəsinə yazılı müraciət etmiş və buna nail olmuşdur. XX əsrin əvvəllərində Bakıda Xalq Məktəbləri Müdiriyyəti nəzdində "Pedaqoji muzey" fəaliyyət göstərmişdir. Ötən əsrin əvvəllərində Ümumrusiya Texniki Cəmiyyətinin Bakı Şöbəsi nəzdində qapalı muzey yaradılmış, burada ayrı-ayrı mövzular üzrə eksponatlar nümayiş etdirilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı şəhərində İstiqlal Muzeyi yaradılmış və Azərbaycan parlamentinin binasında yerləşdirilmişdir.

Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 1924-cü il 30 oktyabr tarixli qərarı ilə Naxçıvanda Tarix-Etnoqrafiya Muzeyi yaradılmışdır. Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 1926-cı il 6 yanvar tarixli qərarına əsasən, Naxçıvan şəhər sakini Balabəy Əlibəyovun yaratdığı şəxsi muzey dövlət mülkiyyətinə götürülmüşdür. 1925-ci ildə Naxçıvanda yaradılan "Naxçıvanı Tədqiq və Tətəbbö" Cəmiyyətinin bu muzeyin zənginləşdirilməsində xüsusi rolu olmuşdur.

Ölkəmizdə muzeyşünaslığın təşəkkül tapması, muzeylər şəbəkəsinin yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın böyük oğlu Azərbaycana rəhbərliyinin birinci dövründə respublikamızda muzeylərin, xüsusilə tarix-diyarşünaslıq, xatirə, ev-muzeylərinin və digər profilli muzeylərin yaradılması, onların fondlarının zənginləşdirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirmişdir. Həmin dövrdə Azərbaycanda Muzeylər İdarəsi, Muzey İşi üzrə Respublika Elmi-Metodiki Mərkəzi, Muzeylərin Bədii Tərtibatı Müəssisəsi, Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi fəaliyyətə başlamışdır. Qısa zaman ərzində Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyi yaradılmışdır. 1969-cu ilə qədər Azərbaycanda cəmi 29 muzey fəaliyyət göstərirdisə, ümummilli liderimizin hakimiyyəti illərində ölkəmizdə 111 müxtəlifprofilli muzey yaradılmışdır. Ümummilli liderimiz muzey işinə yüksək qiymət verərək deyirdi: ***"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır".***

Dahi rəhbərimizin ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışından sonra mədəniyyət sahəsi, o cümlədən muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Ulu öndərimizin təşəbbüsü ilə 1993-cü ildə muzey işçilərinin respublika müşavirəsi keçirilmiş, 1994-cü ildə bu müşavirənin materialları əsasında "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qərar qəbul edilmişdir. 2000-ci ildə qəbul edilən "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi, iqtisadi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir. Qanunda muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri, muzeylərin hüquqları, muzey fondları, onların uçotu və mühafizəsi, muzeylərə dövlət qayğısı və nəzarəti, muzey işçilərinin sosial müdafiəsi, bu sahədə beynəlxalq əməkdaşlıq kimi əhəmiyyətli məsələlər öz əksini tapmışdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu sahədə uğurlu addımlar atılır, böyük layihələr həyata keçirilir. Hazırda Azərbaycanda 200-dən çox muzey fəaliyyət göstərir. Dövlət başçısının "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı və 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı" bu sahənin hüquqi bazasının formalaşmasına, dünyanın nüfuzlu muzeyləri ilə əlaqələrin genişlənməsinə səbəb olmuşdur. Dövlət başçısı muzey işinə mühüm əhəmiyyət verərək demişdir: ***"Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır. Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş şəbəkəyə malik olub, respublikamızın bütün bölgələrini əhatə edir".***



Naxçıvan Dövlət Tarix Muzeyi

Naxçıvan Muxtar Respublikasında da muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində muxtar respublikamızda yeni muzeylər yaradılmış, fəaliyyətdə olan muzeylər təmir olunmuş və eksponatlarla zənginləşdirilmişdir. Bu tədbirlər maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsi və təbliğ olunmasına şərait yaratmışdır. Əgər 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey fəaliyyət göstərirdisə, hazırda bu qədim diyarda 25 müxtəlifprofilli muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. Bunlardan 13-ü paytaxt Naxçıvan şəhərinin payına düşür. Ötən il Bəhruz Kəngərli Muzeyi əsaslı şəkildə yenidən qurulmuş, "Gəmiqaya" Tarix-Bədii Qoruğu və muzeyi üçün bina istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən, muxtar respublika paytaxtında daha bir muzey yaradılmışdır.



"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi

Son illər Naxçıvan Dövlət Tarix Muzeyi, Şahbuz, Babək, Sədərək rayonlarında Tarix-Diyarşünaslıq muzeyləri, Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi, Dövlət Xalça Muzeyi yeni binalarla təmin edilmişdir. Bu illər ərzində Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi, Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərində ev-muzeyi, Şərur rayonunun Cəlilkənd və Babək rayonunun Nehrəm kəndindəki Xatirə muzeyləri və böyük yazıçı Məmməd Səid Ordubadinin ev-muzeyi, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi "Qeysəriyyə" tarixi binası və Ordubad şəhərində Yusif Məmmədəliyevin ev-muzeyi əsaslı təmir olunmuşdur. Hazırda Naxçıvan şəhərində Şəhidlər Muzeyinin, Şərur rayonundakı Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin tikintisi davam etdirilir.

Heydər Əliyev Muzeyi, Açıq Səma Altında Muzey, Bəhruz Kəngərli Muzeyi, Xatirə Muzeyi, Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Cəlil Məmmədquluzadənin ev-muzeyi müstəqillik dövründə yaradılan mədəniyyət ocaqlarıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 9 fevral tarixli Sərəncamı ilə yaradılan Şahtaxtinskilər Muzeyi və 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi bu sahədə həyata keçirilən ardıcıl tədbirlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında" 2013-cü il 28 iyun tarixli Sərəncamı da bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Qədim diyarımızın zəngin tarixini, mədəniyyətinin çoxsaylı inkişaf yolunu əks etdirən muzeylərimiz mədəni irsimizin qorunması və təbliğində, gənc nəslin bədii və estetik tərbiyəsinin, elmi dünyagörüşünün zənginləşməsində böyük əhəmiyyətə malikdir. Bu vəzifələrin yerinə yetirilməsi məqsədilə muzeylərdə açıq dərslərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. Bunda məqsəd böyüməkdə olan gənc nəsildə milli-mədəni irsimizə məhəbbət oyatmaq və onları zəngin tarixi keçmişimizlə tanış etməkdir.



Naxçıvan şəhərində Açıq Səma Altında Muzey

Muxtar respublikada fəaliyyət göstərən muzeylərdə 110 mindən artıq eksponat mühafizə olunur. Bu gün muzeylərimizdə 300-dən çox muzey işçisi çalışır. Son illər 10 nəfər muzey işçisinin Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülməsi onların əməyinə verilən yüksək qiymətin daha bir ifadəsidir.

Muzeylər keçmişimizi bu günə daşıyan, qoruyan, saxlayan, öyrənən və nümayiş etdirən maddi-mənəvi dəyərlər xəzinəsidir. Muzey şəbəkələrinin yaradılması mədəniyyətimizin ümumi yüksəlişini, milli şüurun inkişafını əks etdirməklə yanaşı, həm də muxtar respublikanın turizm potensialının artırılmasına xidmət edir. Eyni zamanda muzeylər elm, maarif müəssisəsi olmaqla qədim keçmişlə bu günümüz arasında körpü rolunu oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Muzeylər Azərbaycan xalqının tarixini, böyük şəxsiyyətlərinin həyatlarını, yaradıcılıqlarını, fəaliyyətlərini özündə əks etdirir. Xalqın tarixi həm kitablarda yazılmaqla, həm də muzeylərdə qorunmaqla gələcək nəsillərə çatdırılır. Muzeylər bizim keçmişimizi özündə yaşadan, gələcəyə daşıyan yerlərdir".***

**Naxçıvan Muxtar Respublikası**
**Mədəniyyət və Turizm**
**Nazirliyinin mətbuat xidməti**

## Müstəqillik illərində Naxçıvanda muzeylərin inkişafına dövlət qayğısı

***Naxçıvan Dövlət Universitetində 18 may – Beynəlxalq Muzeylər Gününə həsr olunmuş "Müstəqillik illərində Naxçıvanda muzeylərin inkişafına dövlət qayğısı" mövzusunda konfrans keçirilib.***

Konfransı giriş sözü ilə açan universitetin rektoru, professor Saleh Məhərrəmov çıxışına Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sözləri ilə başlayıb: ***"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır".*** Rektor xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixinin və mədəniyyətinin inkişaf yolunu əks etdirən muzeylərin zəngin mədəni irsimizin qorunması və təbliğ olunması işində mühüm rol oynadığını bildirib.



Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimov "Naxçıvan Muxtar Respublikasının muzeyləri son 20 ildə" mövzusunda məruzə edib.

Konfransda həmçinin universitetin Botanika muzeyinin rəhbəri, biologiya üzrə fəlsəfə doktoru Hilal Qasımovun "Universitet muzeyləri", ali təhsil ocağının I kurs tələbəsi İradə Abbasquliyevanın "Biz gələcəyin muzey işçiləri olacağıq" mövzularında çıxışları olub.

**Mina QASIMOVA**

## Daha bir turnirə yekun vurulub



Dünən İlham Əliyev adına Olimpiya-İdman Kompleksində daha bir yarışa yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüş Sənəti Federasiyasının birgə təşkil etdiyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş MMA üzrə Naxçıvan Muxtar Respublika turnirində 40-a yaxın idmançı qüvvəsini sınayıb.

İlk olaraq döyüş rinqi 18 yaşadək olan idmançıların ixtiyarına verilib. 55 kiloqram çəki dərəcəsində Polad Cəlilov bütün rəqiblərinə qalib gələrək turnirin qalibi adını qazanıb. Bu yaş qrupunda Nail Rəhimov (60 kq) və Abbas Əsgərov da (65 kq) eyni uğuru təkrarlayıblar.

18 yaşdan yuxarı mübarizə aparan idmançıların döyüşləri isə daha maraqlı olub. İlham Əliyev adına Olimpiya-İdman Kompleksinə toplaşanlar 65 kiloqramda Rəhman Quliyevin, 68 kiloqramda Seymur İbrahimlinin, 70 kiloqramda Əli Muradovun, 72 kiloqramda isə Seymur Süleymanovun inamlı qələbələrinə şahidlik ediblər. Digər çəki dərəcələrində isə Səyyad Məmmədov (77 kq), Cavid Rəcəbli (80 kq), Həsən Abdullayev (82 kq), Fərhad Tanrıverdiyev (85 kq) və Elnur Abdullayev (90 kq) bütün rəqiblərini üstələyərək ilk pillədə qərar tutublar.



Sonda 12 çəki dərəcəsində uğur qazanan idmançılara medal, diplom, kubok və qiymətli hədiyyələr verilib.

✍ **Ceyhun MƏMMƏDOV**

Kəngərli rayonunun Qıvraq Qəsəbə Mərkəzində rayon prokurorluğunun təşkilatçılığı ilə keçirilən maarifləndirici tədbirdə

## Maarifləndirici tədbir

Kəngərli rayon prokuroru, baş ədliyyə müşaviri Müşfiq Həsənovun, rayon prokurorunun köməkçisi, I dərəcəli hüquqşünas Səttar Əsgərovun çıxışları olub. Çıxışlarda təbii qazın, elektrik və istilik enerjisinin talanması zamanı inzibati və cinayət məsuliyyətinin əsasları, yol hərəkəti təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına görə məsuliyyət barədə söhbət açılıb.

Qeyd edilib ki, son illər muxtar respublikada həyata keçirilmiş uğurlu tədbirlər nəticəsində yanacaq-enerji kompleksinin müasir tələblərə uyğun inkişafının əsas istiqamətləri müəyyənləşdirilib, kompleksə daxil olan sənaye sahələrinin fəaliyyətinin səmərəliliyinin artırılması üçün müvafiq elmi-texniki və təşkilati işlər görülüb, enerji resurslarının istehsalı, emalı, nəqli, saxlanılması, uçotu və istehlakı üzrə mütərəqqi texnoloji tədbirlər həyata keçirilib. Həyata keçirilən tədbirlərin, bu sahəyə göstərilən dövlət qayğısının müqabilində vətəndaşlar da işə vicdanla yanaşmalı, elektrik və istilik enerjisinin talanmasına yol verməməlidirlər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

✍ **Səbuhi HÜSEYNOV**

## Laçının işğalından 22 il ötür

*Bağçaların barı gül,*
*Yarı qönçə, yarı gül.*
*Gec açıldın, tez soldun,*
*Açmayaydın barı, gül.*
*Ay Laçın, can Laçın,*
*Mən sənə qurban, Laçın...*

Bəli, məhz xalq mahnısında deyildiyi kimi... 1992-ci ilin yazında Laçında – Kiçik Qafqaz dağlarının bu füsunkar təbiətə malik ərazilərində açılan güllər ömrünü yaşamamış soldu, erməni vandalizmi və vəhşiliyi 18 uşağın ömrünü qönçə çağında soldurdu, 31 körpə hər iki valideynini itirərək yetim qaldı, 300 nəfərdən çox insan şəhid olaraq həyatını, 103 nəfər əlil olaraq sağlamlığını itirdi. Millət olaraq isə biz o gün əzəli türk yurdu olan Laçını – Qarabağın dağlıq hissəsinə gedən yolun üzərindəki ən strateji ünvanı itirdik. Laçın əldən verilməsəydi, Qarabağın digər bölgələrinin işğalını gerçəkləşdirən ermənilərin bu ərazilərdə qalması mümkünsüz olacaqdı. Çünki Ermənistandan Qarabağa gedən yeganə və əsas nəqliyyat dəhlizi Laçındır.

Azərbaycan Respublikasının füsunkar guşələrindən biri olan Laçın rayonu ölkəmizin cənub-qərbində, Kiçik Qafqazda yerləşir. Rayonun ərazisi şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayonun 1 şəhər, 1 qəsəbə, 125 kəndi var. Rayon mərkəzi olan Laçın şəhəri Bakıdan şose yolla 450 km, Xankəndi dəmir yolu stansiyasından isə 60 km məsafədə yerləşirdi. İndi isə bizimlə Laçın arasındakı məsafə kilometrlə deyil, zamanın il ölçüsü ilə ölçülür – 22 il.

### *Qobustan və Gəmiqayadan sonra…*

Qədim türk yurdu Laçında məskunlaşmanın tarixi ən geci eramızdan əvvəl II-I minilliklərdən başlayır. Laçın rayonunun Mirik kəndi ərazisindəki Qaranlıq kaha, Bayqara mağaraları, Hoçaz kəndindəki mağara-məbəd bu qədim tarixin nişanələridir.

Bununla yanaşı, Qobustan və Gəmiqayadan sonra Laçında qədim qaya təsvirləri, daş üzərində süjet xarakterli oymalar aşkara çıxarılmışdır. Bütün bunlar isə, təbii ki, protoazərbaycanlıların qədim mədəni inkişafının müxtəlif bölgələrimizdə meydana çıxan ortaq təzahürləridir.

Rayon ərazisindəki IX əsrə aid Ağoğlan qəsri, XI əsrə aid Dəmrovlu Pir Məbədi, XII əsrin abidəsi olan Malik-Əjdər türbəsi, XV əsrin yadigarı Uşaq qalası, XVII əsrin nişanələrini saxlayan Kar günbəz, orta əsrlərin yadigarları olan birtağlı və ikitağlı körpülər, su dəyirmanları və sair kimi tarixi abidələr öz memarlıq üslubu ilə qədim dövrlərdən ərazidə türk tayfalarının məskən saldığını təsdiqləyir. Ümumilikdə, işğala qədərki dövrdə Laçın rayonunda 54 dünya və 200-dən çox yerli əhəmiyyətli qədim tarixi abidələr var idi.

Çar Rusiyası dövründən başlayaraq 1930-cu ildə müstəqil inzibati rayon kimi təşkil olunana qədər Qarabağ xanlığı və Zəngəzur qəzasına daxil olmuş bu ərazinin ilk adı türk "Abdal" tayfasının adından götürülmüşdür. 1924-cü ilə qədər indiki Laçın rayonu məhz "Abdallar" adlanmışdır. Bu ad "Ağ hun" tayfasının adını əks etdirir. Əsasında "Abdal" tayfasının adı olan etnotoponimlərə başqırdlarda, qaraqalpaqlarda, qazaxlarda və türkmənlərdə rast gəlinir. Hələ VI əsrdə suriyalı tarixçi Zaxari Ritor Şimali Qafqazda Hun əyalətində yaşayan müxtəlif tayfalar arasında türkdilli "Abdal" tayfasının da adını çəkmiş, alban tarixçisi Musa Kalankatlı Albaniyada yaşayan "Abdal" tayfasının adını qeyd etmişdir.

Qeyd edək ki, "Abdal" adına ölkəmizin digər əraziləri ilə yanaşı, Ordubad rayonu ərazisində də rast gəlinir.

Əvvəllər "Abdallar" adlanan, 1924-cü ildən isə şəhər statusu alan Laçın şəhəri 1930-cu ildən rayon mərkəzinə çevrilmişdir. Şəhərin adı görkəmli Azərbaycan yazıçısı Tağı Şahbazi Simurq tərəfindən yaxınlıqdakı dağın adına uyğun olaraq Laçın adlandırılmışdır. "Laçın" sözü "məğrurluq" mənasını bildirir.

1828-ci il Rusiya-İran müharibəsindən sonra Rusiyanın himayəsi altında Cənubi Qafqaza Osmanlı dövlətindən və İrandan ermənilərin kütləvi şəkildə köçürülüb məskunlaşdırılmasına başlanılmışdır. O zaman bu torpaqlara səfil, ac-yalavac gələn ermənilər 1905-1907 və 1918-1920-ci illərdə Laçının da daxil olduğu Zəngəzur bölgəsində türk-müsəlman əhaliyə qarşı qanlı qırğınlar törətmiş və nəticədə, təxminən, yarım milyon müsəlman həlak olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra da Qarabağı və Zəngəzuru mənimsəmək üçün ermənilərin ərazi iddiaları nəticəsində kütləvi qırğınlar davam edir. Erməni komandanı Andranik nə yolla olursa-olsun, öz silahlı qüvvələri ilə bərabər Gorus, Laçın, Şuşa istiqamətindən Qarabağa daxil olmaq, oranın erməni əhalisini Azərbaycan hökumətinə qarşı qaldırmaq, təxribatlar törətmək və bölgədə itaətsizlik yaratmaq istəyirdi. Bu məqsədlə Andranik bir neçə minlik ordu ilə Zabux kəndini keçərək Laçın istiqamətində irəliləmişdir. Bu məsələdən əvvəlcədən xəbər tutan bölgənin nüfuz sahiblərindən biri, Qarabağın general qubernatoru Xosrov bəy Sultanovun



qardaşı Sultan bəy Sultanov öz dəstəsi ilə Laçın-Zabux yolundakı bir dərədə Andranikin qoşununu mühasirəyə salmışdır. Burada bir gündən çox qanlı döyüşlər getmişdir. Bu döyüşlər zamanı Andranik, demək olar ki, bütün qüvvəsini itirərək bir neçə nəfərlə güclə qaçmağa imkan tapmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkənin ərazi bütövlüyünü təmin etmək üçün Zəngəzura qoşun hissələri göndərir. Aparılan döyüşlərdə Sultan bəy Sultanovun rəhbərliyi ilə Laçın silahlı dəstələri də iştirak edir. Döyüşlər Azərbaycan qoşun hissələrinin uğuru ilə başlayır. Lakin tezliklə bölgə qızıl ordu hissələri tərəfindən işğal olunur.

1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla Zəngəzur bölgəsi 2 yerə bölünür. Nəticədə, Zəngəzur qəzasının 6 min 742 kvadrat verstlik ərazisindən 3 min 105 kvadrat versti Laçın da daxil olmaqla Azərbaycan SSR tərkibində qalır, 3 min 637 kvadrat verstlik hissəsi isə Ermənistana verilir.

Hələ sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi zaman ermənilərin Qarabağ ərazilərinə əsassız iddialarını bilən, bu əzəli Azərbaycan torpaqlarının inkişafına və tərəqqisinə çalışan ulu öndər Heydər Əliyev Laçın haqqında 1971-ci ildə dağ rayonlarının iqtisadiyyatını yüksəltmək üçün qərar qəbul etmiş, qısa zaman kəsiyində Laçının sürətli inkişafına nail olunmuşdu. İstər iqtisadi cəhətdən, istərsə də abadlıq-quruculuq sahəsində dağ rayonları sırasında o zaman Laçın birinci yerdə dururdu.

### *İşğal*

1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal olunduqdan sonra Laçın ətrafında yerləşən yaşayış məntəqələrini işğal edən erməni silahlı qüvvələri intensiv olaraq ağır artilleriya silahlarından rayon mərkəzini atəşə tutmağa başlamışlar.

1992-ci il may ayının 18-də Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçən erməni ordusu Laçını işğal etmişdir. Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vasitəsilə əraziyə daxil olmuşdur.

Həmin dövrdə Laçından və ətraf rayonlardan çıxarılan silahlı qüvvələrin əksəriyyəti Bakıda baş verən siyasi qarşıdurmalara cəlb olunurdu. Yəni paytaxtda mövcud olan silahlı aksiyalara qoşulan ordu cəbhə bölgələrindəki mövqelərimizi nəzarətsiz qoymuşdu. Nəticədə, ardıcıl işğal edilən rayonlarımızın sırasına Laçın da daxil olmuşdu.

İşğala qədər rayonda bir şəhər, bir qəsəbə, 125 kənd mövcud olmuş, 48 sənaye, 63 kənd təsərrüfatı, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəliftəyinatlı istehsal müəssisələri fəaliyyət göstərmişdir. Erməni işğalı nəticəsində 13 min 745 yaşayış evi qarət edilərək yandırılmış, rayon ərazisindəki 54 dünya, 200-dən çox yerli əhəmiyyətli qədim tarixi abidələr erməni vandalizminə məruz qalmış, ictimai və şəxsi təsərrüfatlarda olan 25 min başdan çox iri və 200 min başdan çox xırdabuynuzlu heyvan qarət olunmuşdur. Ümumilikdə, işğal nəticəsində Laçın rayonuna 7,1 milyard ABŞ dollarından çox ziyan dəymiş, 58 min 736 nəfər laçınlı öz doğma torpağından didərgin salınaraq məcburi köçkün kimi respublikanın 58 şəhər və rayonunda məskunlaşmışdır.

### *Bütün körpülər, bütün yollar Laçına aparmalıdır…*

İndi isə laçınlıların sayı 73,3 min nəfərdir. Onlar Ağcabədi rayonu ərazisindəki Taxta körpü qışlaqlarındakı 84 obaya məcburi köçkün kimi düşmüşdülər. 2011-ci ildə Taxta körpüdə məskunlaşmış 552 məcburi köçkün ailəsi üçün yeni yaşayış qəsəbəsi salınmış, Taxta körpü ərazisinə 21 kilometr uzunluğunda təbii qaz xəttinin çəkilişi başa çatdırılmış, 4 kilometrlik içməli su xətlərində təmir-bərpa işləri aparılmış, köhnə borular yeniləri ilə əvəzlənmişdir. Alxaslı və Qarakeşiş obalarında modultipli sutəmizləyici qurğular quraşdırılmışdır. Taxta körpü-Mais və Taxta körpü-Alxaslı avtomobil yolunda təmir işləri aparılmış, 7,9 min kvadratmetr yol asfaltlanmışdır. Lakin, təbii ki, hər bir laçınlının ən ümdə arzusu doğma el-obalarına, od-ocaqlarına qayıtmaqdır.

Artıq 22 ildir ki, işğalçı erməni dövləti beynəlxalq hüquq normalarına, zəbt olunan Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin qətnamələrinə məhəl qoymayaraq Laçında qanunsuz məskunlaşma aparır. Bütün Azərbaycan xalqı kimi, laçınlılar da inanırlar ki, münaqişənin həlli ilə bağlı ölkə rəhbərliyinin yeritdiyi məqsədyönlü siyasət öz bəhrəsini verəcək, onlar doğma yurdlarına qayıdacaqlar. 22 ildir, məcburi köçkünlük həyatı yaşamalarına baxmayaraq, qürurlarını hər zaman qoruyub-saxlayan laçınlılar inanırlar ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın milli mənafeyinə uyğun həll olunacaq, işğal altında bütün ərazilərimiz düşmən tapdağından azad ediləcək. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin sözləri ilə ifadə etsək: ***"Laçınlılar bütün dövrlərdə Azərbaycana, Azərbaycançılıq fəlsəfəsinə sadiq olmuşlar. Bu gün də bu, belədir. Laçının işğal altına düşməsi təkcə laçınlıların deyil, bizim hamımızın böyük faciəsidir. Çünki Laçının gözəl abidələri indi dağıdılıbdır. Bizim dini abidələrimiz dağıdılıbdır. Muzey eksponatlarımız talan edilibdir, evlər dağıdılıbdır. Laçınlıların evlərində indi düşmənlər yaşayır. Bu da bir dərddir. Evin sökülməsi dərddir, amma evdə düşmənin yaşaması ondan da böyük dərddir. Çünki bilirsiniz ki, Laçın rayonunun mərkəzində sizin evlərinizdə indi düşmənlər yaşayır. Yəni bu vəziyyətlə barışmaq mümkün deyil və biz bu vəziyyətlə barışmayacağıq".***

✍ **Elnur KƏLBİZADƏ**

## Elan

Naxçıvan Dövlət Universiteti 2013/2014-cü tədris ilinin yay məqbul-imtahan sessiyası ilə əlaqədar aşağıdakı məlumatı qiyabiçi tələbələrin nəzərinə çatdırır:

*1. Universitetin qiyabi şöbəsində təhsil alan I, II, III, IV kurs tələbələrinin yay məqbul-imtahan sessiyası (əlavə ali təhsil də daxil olmaqla bütün ixtisaslarda) 3 iyun 2014-cü il tarixdən başlayır və 25 iş günü davam edir.*

*2. Buraxılış kurs tələbələrinin məqbul-imtahan sessiyası 3 iyun 2014-cü il tarixdən başlayır və 15 iş günü davam edir. Yekun dövlət attestasiyası isə 20 iyun 2014-cü il tarixdən başlayır və 10 iş günü davam edir.*

**QEYD:** Akademik borcları olan tələbələr növbəti sessiya başlananadək borclarını ödəməlidirlər.

**Rektorluq**

### *İtmişdir*

Babayev Cümşüd Cəfər oğlunun adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş MH-0019627 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi Botanika kafedrasının müdiri Musa Piriyevə, əzizi

**KİRMANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 441